RATİ
Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu

# PRESS-RELİZ

*05 noyabr 2007-ci il*
*Bakı, Azərbaycan*

## MƏLAHƏT NƏSİBOVAYA QARŞI NÖVBƏTİ DƏFƏ TƏZYİQ EDİLDİ

Noyabrn 4-də Naxçıvanda keçirilən etiraz aksiyasında iştirak edən "Turan" informasiya agentliyinin müxbiri Məlahət Nəsibova polis tərəfindən təhqirə məruz qalıb. Belə ki, M.Nəsibova peşə borcunu yerinə yetirərkən Naxçıvan Şəhər Polis İdarəsinin rəis müavini Əşrəf İbrahimov tərəfindən təhqir olunub. M.Nəsibovanın diktafonunu əlində almağa çalışan Ə.İbrahimov jurnalisti vətən xaini adlandırıb. Ə.İbrahimov M.Nəsibovanı həbs etməklə hədələyərək ona deyib ki, "sən Naxçıvanın çörəyini yeyib Naxçıvana qarşı çıxırsan"

Xatırladaq ki, oktyabrın 22-də Məlahət Nəsibova vəzifə borcunu yerinə yetirərkən Naxçıvan şəhər hava limanında polis tərəfindən təzyiqlərə və təhqirlərə məruz qalmışdı. Hadisə jurnalistin Naxçıvandan 1500 sərnişinin Bakıya uça bilməməsinin səbəblərini öyrənmək istəyərkən baş vermişdi. Belə ki, hava limanının təhlükəsizlik xidmətinin Elnur və İlham adlı zabitləri reportaj hazırlayan Nəsibovanı saxlayıb, diktofon və fotoaparatı onun əlindən almaq istəyiblər. Həmin şəxslər jurnalistə şikayət edən sərnişinlərdən müsahibə götürməyə də maneəçilik törədiblər. Maneələrə baxmayaraq, jurnalistə israrla mövqeyini bildirmək istəyən ahıl kişi həmin şəxslər tərəfindən döyülmüşdü.

## ELÇİN BEHBUDOV EYNULLA FƏTULLAYEVLƏ GÖRÜŞÜB

"Eynulla Fətullayev özünü müqəssir hesab etmir. O, fikirləşir ki, adam öldürənə də 8 il, məqalə yazana da 8 il iş vermək ona qarşı qərəzli mövqe tutmaq deməkdir". Bu sözləri Eynulla Fətullayev İşgəncələr Əleyhinə Komitənin sədri Elçin Behbudovla görüşündə bildirib. Elçin Behbudov RATİ-nin əməkdaşı ilə söhbətində onu da əlavə edib ki, o jurnalistlə noyabrın 3-ü görüşüb.

## JURNALİSTLƏR TƏHQİR EDİLDİ

Sumqayıt Dövlət Universitetinin prorektoru "Bakı Zaman" qəzetinin əməkdaşlarını təhqir edib. Bu haqda qəzetin bu günkü sayında məlumat verilib. Qəzetdə dərc edilən yazıda qeyd olunur ki, redaksiyaya müraciət edən Sumqayıt Dövlət Universitetinin bir qrup tələbəsi tərəfindən bu universitetdə baş verən rüşvətxorluq, özbaşnalıq, maliyyə yeyintiləri barədə ətraflı məlumat verilib. Faktla

bağlı universitet rəhbərliyi ilə görüşüb onların da fikirlərini öyrənmək istəyən qəzet əməkdaşları universitet rektoru ilə görüşə bilməyiblər. Lakin prorektor Məmməd Əhmədovla görüşməyə nail olan jurnalistlər təhqirlə üzləşiblər. Sözlərinə mətbuatı təhqir etməklə başlayan M.Əhmədov bütün jurnalistləri "ağzına gələni yazmaqda" ittiham etdi: "Onların yazdıqlarını özlərindən başqa heç kim oxumur. Qoy, nə istəyirlər yazsınlar. Biz heç bir jurnalistin sözü ilə oturub durmamışıq və bundan sonra da durmayacağıq. Kim onu sizə deyib qələt eləyib sizinlə birlikdə. Sizə isə onu deyə bilərəm ki, gedin özünüzə düz əməlli sənət tapın. Gedin işinizin dalınca."

Prorektora öz peşə borclarını yerinə yetirdiklərini bildirən jurnalistlər onun təhqirlərinə məruz qalıb. "Mənim geydiyim ayaqqabının qiyməti sənin "obşi" dəyərindən çoxdur. Siz kimsiz ki, hələ bir sizə "atcot" verim. Nə istəyirsiniz gedin yazın.Onsuz da bir şey əldə edə bilməyəcəksiniz. Bizim dalımızda dövlət başçısı durub. Sizin yazılar dövlətimizə qarşı bir cinayətdir" Bu sözləri də prorektor M.Əhmədov "Bakı Zaman" qəzetinin əməkdaşlarına deyib.

RATİ baş vermiş hadisənin təfərrütlarını dəqiqləşdirmək üçün qəzet rəhbərliyi ilə əlaqə saxladı. Qəzetin baş redaktoru Elnur Məhərrəmlidən aldığımız məlumata görə, qəzetin əməkdaşı Elçin Hüseynov noyabrın 3-ü Sumqayıt Dövlət Universitetində olub və bu cür münasibətlə üzləşib.

## MƏHKƏMƏNİN VAXTI MÜƏYYƏNLƏŞDİ

"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı barəsində başlanmış cinayət işi üzrə məhkəmə hazırlıq iclası sabah saat 12.00-da keçiriləcək. Hakim Turqay Hüseynovdur. Bu barədə RATİ-yə Əvəz Zeynallı məlumat verib.

Xatırladaq ki, Əvəz Zeynallı oktyabrın 5-i MTN-ə çağırılmış və ona Cinayət Məcəlləsinin 283.1 (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddəsi ilə ittiham elan olunmuşdu. Eyni zamanda onun özündən Bakı şəhərini tərk etməmək barədə iltizam alınmışdı. İttihamın irəli sürülməsinə səbəb Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun Adolf Hitlerin "Mənim savaşım" kitabının Əvəz Zeynallı tərəfindən tərcümə edilmiş variantında baş redaktorun Hitlerə rəğbətinin hiss olunması barədə rəy verməsi olub. İş üzrə istintaqı isə MTN aparırdı. Oktyabrın 30-u istintaq yekunlaşmış və bütün materiallar Nərimanov rayon məhkəməsinə göndərilmişdi.

Qeyd etmək lazımdır ki, 2004-cü ildə Azərbaycan Dağ Yəhudiləri İcması da "Mənim savaşım" kitabını tərcümə və qəzetdə nəşr etdiyinə görə Əvəz Zeynallının cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı iddia qaldırmışdı. Həmin vaxt başlanılmış cinayət işinə xitam verilsə də, 2007-ci ilin avqustunda cinayət işi Baş prokurorluq tərəfindən yenilənib.

## İDDİAÇI BARIŞIQDAN İMTİNA EDİR

Bu gün Yasamal rayon məhkəməsinin hakimi Raqib Qurbanovun sədrliyi ilə Bakı şəhər Yol Polis İdarəsinin rəis müavini Qafar Abbasovun "Azadlıq" qəzetinə qarşı iddiası üzrə məhkəmə prosesi keçirilib. Qeyd edək ki, 23 oktyabr tarixində keçirilməli olan məhkəmə prosesi təxirə salınmışdı. Buna səbəb kimi tərəflər arasında barışıq üçün

razılığın əldə olunması göstərilmişdi. Bu günkü məhkəmə iclasında isə iddiaçı tərəfin nümayəndəsi İntiqam Həsənov məqalənin mənbəyi açıqlanmadığına görə barışığa razı olmadıqlarını dedi. “Mən belə hesab edirəm ki, yazan şəxs məqalənin doğru olduğunu sübut edə bilmir, deməli müdafiə etdiyim şəxsin şərəf və ləyaqətinə toxunulmuş olur”. Eyni zamanda o, bu məqalədən Qafar Abbasovun mənəvi cəhətdən sarsıldığını da qeyd etdi. “Azadlıq” qəzetinin hüquqlarını qoruyan vəkil Elçin Sadıqov isə öz çıxışında bildirdi ki, iddiaçı tərəf mənbənin açıqlanmasını tələb edir. Bu isə mümkün deyil. Belə ki, mənbənin açıqlanması məcburi deyil. Eyni zamanda iddiaçı tərəfin ona mənəvi ziyanın dəyməsini heç bir halda sübuta yetirə bilmədiyini əsas tutaraq, Elçin Sadıqov məhkəmədən iddia ərizəsinin rədd olunmasını xahiş etdi. Sonda E.Sadıqov məhkəmədən xahiş etdi ki, iddiaçının mənbəni tələb etməsi protokola qeyd oluunsun. Bu fakt protokola əlavə edildi. Növbəti məhkəmə prosesi 7 noyabr saat 09:00-a təyin olundu.

Xatırladaq ki, “Azadlıq” qəzetinin 07 iyun 2007-ci il tarixli sayında qəzetin yazarı Azad Akifoğlunun müəllifi olduğu “OLİQRAX “QAİ” - “Bakı şəhər Yol Polis İdarəsinin rəis müavini Qafar Əliyevin göydələn tikməyə başladığı bildirilir” adlı məqalə dərc edilib. Yazıda onun maşın satışı ilə məşğul olan firmaları himayə etdiyi, bir ərəbə 30 min ABŞ dolları “atması” kimi ifadələr işlədilmişdi. Bununla bağlı adı çəkilən orqanın nümayəndəsi Q. Abbasov 18.06.2007- ci ildə Yasamal rayon məhkəməsinə müraciət etmişdi. İddiaçı təkzibin verilməsi və qəzetlə birgə yazı müəllifi Azad Akifoğlundan mənəvi ziyana görə 50.000 AZN məbləğində cərimənin ödənilməsinin təmin edilməsini məhkəmədən xahiş edib.

## MƏHKƏMƏ PROSESİ TƏXİRƏ SALINDI

Bu gün Nərimnov rayon məhkəməsinin hakimi Sevinc Alıyevanın sədrliyi ilə “AMAY” ASC-nin “Xural” qəzetinə qarşı iddiası əsasında məhkəmə prosesi keçirilmədi. Buna səbəb iddiaçı tərəfin prosesə gəlməməsi olub. Növbəti məhkəmə prosesi noyabrn 23-ü saat 16:00-a təyin edildi.

Xatırladaq ki, "AMAY" ASC-nin baş direktoru N. Abazərov bu il mayın 21-də "Xural" qəzetinin redaksiyasına qarşı Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 168-ci maddəsinə əsasən, Nərimanov rayon məhkəməsinə iddia ərizəsi ilə müraciət etmiş və redaksiyadan bir milyon manatın alınaraq, "AMAY" ASC-yə ödənməsi tələbini irəli sürmüşdü. İddiaya səbəb qəzetin 2006-cı il 17-23 sentyabr tarixli sayında "AMAY-ın Abdullası həbs olundu!" adlı məqalə olub.

**MƏLUMATLARIMIZDAN İSTİFADƏ EDƏRKƏN RATİ-YƏ İSTİNAD EDİN**

**Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu (RATİ)**
**Ünvan: Azərbaycan, Bakı şəh., Behbudov 8, mənzil 85/86**
**tel: (+99 412) 418-03-34, fax: (+ 99 412) 598-45-19**
**e-mail: irfs.az@gmail.com**
**web: www.irfs.az  skype: irfs.az**